# MÜASIR AZƏRBAYCANIN MULTIKULTURALIZM MODELLƏRI VƏ SIYASI TƏCRÜBƏSI

Zülfiyyə BABAYEVA*

**Xülasə:** Məqalədə multikulturalizmin nəzəri əsasları və müxtəlif ölkələrdə multikulturalizm modellərinin xüsusiyyətləri təhlil edilir. Liberalizm, tolerantlıq, millətlərarası münasibətlərin multikulturalizmin nəzəri əsasını təşkil etdiyi vurğulanır. Məqalədə müxtəlif ölkələrdə multikulturalizmin spesifik modellərinin (İsveç, Avstraliya və Kanada modelləri) inkişaf prosesləri ətraflı şəkildə açıqlanır, həmçinin Azərbaycan xalqının multikultural ənənələrinin qorunub saxlanılması üzrə dövlət siyasəti araşdırılır. Məqalədə Azərbaycan Respublikasının mədəni, dil və etnik müxtəlifliyin qorunub saxlanmasına yönəlmiş dövlət siyasəti də ətraflı araşdırılır. Tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunub saxlanmasının təmin edilməsi məqsədləri nəzərdən keçirilir, həmçinin multikulturalizm, millətlərarası və konfessiyalararası münasibətlər və dialoq məsələlərinə dair beynəlxalq tədbirlər, elmi konfransların adı sadalanır. Məqalədə qeyd olunur ki, forumlar beynəlxalq təşkilatlar və beynəlxalq universitetlərin təhsil proqramlarının layihələri çərçivəsində keçirilir.

***Açar Sözlər:*** *Multikulturalizm, Tolerantlıq, Mədəni-Mənəvi Irs, Mədəniyyətlərin Dialoqu, Konfessiyalar, Forum, Ənənə*

**Models of Multiculturalism and Political Practice in Modern Azerbaijan**

**Abstract:** The article analyzes the theoretical base of multiculturalism and features of multiculturalism models in different countries. It is emphasized that liberalism, tolerance, interethnic relations are the theoretical basis of multiculturalism. In the article, it is explored the process of development of specific models of multiculturalism in different countries (Swedish, Australian and Canadian model) in detail and the state policy of preserving the multicultural traditions of the Azerbaijani people. The article also examines the state policy of the Republic of Azerbaijan aimed at preserving cultural, linguistic and ethnic diversity in detail. The goals of ensuring the preservation of tolerance and cultural, religious, linguistic diversity are considered, international events, scientific conferences on issues of multiculturalism, interethnic and interfaith relations and dialogue are also listed. It should be noted that the forums are held within the framework of international organizations and projects of educational programs of international universities.

***Key Words:*** *Multiculturalism, Tolerance, Cultural and Spiritual Heritage, Dialogue of Cultures, Confessions, Forum, Tradition*

## Giriş

Azərbaycan müxtəlif sivilizasiyaların qovşağında yerləşir. Azərbaycan uzun əsrlərdir ki, milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin sülh və firavanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı region kimi şöhrət qazanmışdır. Ona görə də multikulturalizm və tolerantlıq bu gün milliyyətindən, dilindən və dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyatının ayrılmaz xüsusiyyətlərinə çevrilmişdir (Бабаева, 2021: 193).

Əvvəlcə qeyd etmək lazımdır ki, multikulturalizm bir ölkədə və bütövlükdə dünyada müxtəlif dinlərin və millətlərin nümayəndələrinin mədəni müxtəlifliyinin qorunub saxlanılmasına, inkişafına və uyğunlaşdırılmasına, kiçik xalqların dövlətlərin milli mədəniyyətinin inteqrasiyasına yönəlib. Bundan əlavə, multikulturalizm mədəni plüralizmi nəzərdə tutan və təşviq edən siyasətdir. Bu, insanların etnik, irqi və dini fərqlərindən asılı olmayaraq istənilən ölkənin bütün əhalisinin hüquqlarına hörmətlə yanaşması ilə bağlıdır (Йеменский, 2015: 34).

Multikulturalist cəmiyyətdə ölkənin bütün vətəndaşları öz mədəniyyətinin, dilinin, adət-ənənələrinin, etnik və dini dəyərlərinin inkişafında bərabər hüquqlara malikdirlər. Buna uyğun olaraq belə bir cəmiyyətdə milli məktəblər açılır, milli dildə qəzet və jurnallar nəşr olunur (Антонова, 2012: 16).

Qeyd etmək lazımdır ki, multikulturalizmin nəzəri əsasını belələri ilə liberalizm təşkil edir azadlıq, bərabərlik və qardaşlıq kimi dəyərlər. Bundan əlavə, multikultural cəmiyyət

---

* Siyasi Elmlər Üzrə Fəlsəfə Doktoru, Dosent, Bakı Avrasiya Universiteti, Humanitar Fənlər və Regionşünaslıq Kafedrası, shehreban@yahoo.com

təkcə sosial ədalətsizliyi deyil, irqçiliklə bağlı ədalətsizliyi də aradan qaldırmağın mümkün olduğu liberal cəmiyyətdir. Lakin liberalizmdən fərqli olaraq multikulturalizm fərdlərin deyil, etnik və mədəni qrupların hüquqları ilə məşquldur (Banting, Kymlicka, 2006: 14).

Multikulturalizm məhz tolerantlıq siyasətinə mahiyyətcə çox yaxın olan siyasətdir. Tolerant cəmiyyətin ən mühüm xüsusiyyəti müxtəlif mədəniyyətlərin paralel mövcudluğudur. Məhz tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə töhfə verir. Düşünürəm ki, bu, insanların daha da mədəni birləşməsi məqsədilə bir mədəniyyətin digər mədəniyyətə nüfuz etmə prosesi ilə bağlıdır (Куропятник, 2000: 7).

Qeyd etmək yerinə düşər ki, bəşər cəmiyyətinin inkişafı, humanitar biliklərin tərəqqisi və millətlərarası münasibətlərin təkmilləşməsi ilə insan icmalarının birgəyaşayış formalarının hər biri daim qüsur və çatışmazlıqları üzə çıxarmışdır.

Bunu qeyd etmək yerinə düşər ki, bəşər cəmiyyətinin inkişafı, humanitar biliklərin tərəqqisi, millətlərarası münasibətlərin təkmilləşməsi ilə dini, mədəniyyəti və milli mənsubiyyətinə görə fərqlənən insanların icmalarının birgəyaşayış formalarının hər biri dəyişməz olaraq qüsur və çatışmazlıqları üzə çıxarmışdı. Bunu çoxsaylı millətlərarası ziddiyyətlər (Böyük Britaniyada ingilislər və irlandlar, Belçikada valonlar və flaminqlər, Azərbaycanda ermənilərlə azərbaycanlılar və s.), dini münaqişələr (Fələstində müsəlmanlarla yəhudilər, Şimali İrlandiyada protestantları və katoliklər, Hindistanın Cammu və Kəşmir ştatlarında hindularla müsəlmanlar arasında və s.), dünyanın müxtəlif ölkələrində futbol azarkeşlərinin aqressiv kütləvi aksiyaları və s. sübut edir (Гусейнов, Прокофьев, 2005: 125).

Beləliklə, multikulturalizm nəzəriyyəsi vətəndaşların etnomədəni müxtəlifliyinin nəzərə alınmasının yuxarıdakı və digər formalarının çatışmazlıqlarını azaltmaq məqsədi daşıyırdı. Bu nəzəriyyə müxtəlif etnik mədəniyyətlər arasında bərabərhüquqlu dialoqa əsaslandığı üçün onu bir sıra digər birgəyaşayış modellərindən fərqləndirməyə imkan verir (Bernstein, 1994: 4).

Xüsusi vurğulamaq lazımdır ki, multikulturalizm modeli bir dövlətin sərhədləri daxilində öz mədəni xüsusiyyətlərini və həyat tərzini rəsmi şəkildə ifadə etmək, yaşatmaq və qorumaq hüququna malik olan müxtəlif etnomədəni icmaların dinc yanaşı yaşaması deməkdir. Multikulturalizm mədəniyyətlər və sivilizasiyalar arasında dialoq üçün zəruri vasitədir (Малахова, Тишкова, 2002: 48).

Bu spesifik modellər arasında Amerika, İsveç, Avstraliya və Kanada modellərini qeyd etmək istərdim. Bu dövlətlərin digər etnik qrupların və mühacirlərin assimilyasiyasına, onların fiziki və ya mənəvi məhvinə yönəlmiş fəaliyyəti istər tarixi keçmişdə, istərsə də bizim dövrümüzdə dövlət siyasətinin ənənəsinə çevrilmişdir. Bu modellər tarixi kökləri olduğu üçün daha davamlı sayılırdılar.

Multikulturalizmin Amerika Modeli: XX əsrin 60-cı illərinin ortalarından etibarən Birləşmiş Ştatlar anqlo-saksonlardan (Amerika millətinin etnomədəni bazası) və immiqrantlardan ibarət qondarma "ərimə qazanı" olmuşdur. Anqlosakslar burada hakim mövqe tuturdular. Sonra vəziyyət tamamilə dəyişdi. "Ərimə qazanı" proqramı multikulturalizm ideologiyası ilə əvəz olundu.

Qərbsayağı multikulturalizmin formalaşmasında bu modelə Avropa dövlətlərinin müstəmləkə sisteminə xidmət edən ideologiya kimi baxmaq olar. Burada 2 fərqli yanaşma müşahidə olunur:

1. Avropa dövlətlərinin müstəmləkə ölkələrin əhalisinə yanaşması. Avropa dövlətləri Qərb dəyərlərinin dominantlığı üzərində formalaşdırdıqları ideologiyanı müstəmləkə ölkələrində yeganə üstün sivilizasiyalı mədəniyyət kimi təqdim etməyə çalışır və yerli mədəniyyətlərə qarşı etinasız yanaşırdılar. Yalnız Qərb mədəni və dini dəyərlərinin üzərində qurulan Avropa cəmiyyəti dünya miqyasında universal standart kimi təqdim olunurdu. Belə olmasaydı Amerika qitəsində qədim Mayya mədəniyyəti, Afrikada Misir mədəniyyəti, Şərqi Asiyada Hind, Malay, Çin kimi ilkin sivilizasiya mədəniyyətləri yalnız istismara məruz

qalmazdı. Maraqlıdır ki, bu gün işçi qüvvəsi kimi Avropaya gələn miqrantların Qərb dəyərlərini qəbul etmədiyi üçün multikulturalizmin məğlubiyyətə uğradığını iddia edənlər bir neçə əsr əvvəl okeanın o tayında nə yerli xalqların, nə də zorla Afrikadan gətirdikləri qulların mədəni müxtəlifliklərini nəinki qəbul etmir, hətta məhv edirdilər. Nədənsə o zaman belə münasibət multikulturalizmin böhranına səbəb kimi qiymətləndirilmirdi.

2. Avropa xalqları "Köhnə qitə"dən kənarda yeni dünya ölkələrində Amerikada, Avstraliyada, Yeni Zelandiyada yerli mədəniyyətləri qəbul etməməklə bərabər, öz aralarında mədəni cəhətdən daha da yaxınlaşdılar. Yəni Avropada bir-birindən fərqlənən protestant, katolik, pravoslav dini daşıyıcılar, eləcə də anqlo-saks, german, latın dil qrupu təmsilçiləri Amerikada və ya Avstraliyada vahid mədəni dəyərlərin yaradılmasına doğru istiqamətləndirildi. Yuxarıda qeyd etdiyimiz kimi ABŞ-da bu nəzəriyyəni "əridici qazan" (melting pot) adlandırırlar. Bu zaman multikulturalizm konsepsiyası bütün millətlərin bir xalq kimi birləşdiyi "ərimə qazanı" konsepsiyası ilə qarşılaşdırılır (Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, 2024).

Bu mərhələnin formalaşması qərbsayağı multikulturalizmin bir ölkədə fərqli millətlərin və mədəniyyətlərin birgə mövcud olduğu və dəqiq millət anlayışı olmayan dövlət modelinin yaranması ilə nəticələndi. Bu gün "Köhnə qitə" və ondan kənardakı Qərbsayağı multikulturalizm arasında yaranmış fərqlərin də səbəblərini burada axtarmaq lazımdır. Avropanın multikulturalizmin iflası və ya böhranı haqqında danışdığı bir halda okeanların o tərəfindəki Qərb modellərində (ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və s.) çoxmədəniyyətliyə dövlətlərin inkişafına təkanverici qüvvə kimi baxılır. Bu fərqin yaranmasında əvvəlcə tarixi ənənə faktoruna diqqət yetirmək lazımdır. Bununla da əsrlər boyu bir-biri ilə rəqabət aparan Avropa dövlətlərinin vahid Qərb mədəniyyətini milli dəyərlərdən üstün tutması daha çox vaxt aldı. Yeni torpaqlarda isə belə bir tarixi qarşıdurma olmadığı üçün "əridici qazan" daha tez və effektiv işləməyi bacardı (Multikultural Azərbaycan, 2024).

Belə olan halda Qərbsayağı multikulturalizmdə milli dəyərlər öz əvvəlki əhəmiyyətini itirmiş oldu və yeni vahid universal bir Qərb dəyərinin yaranmasına keçid başlandı. "Amerikan modeli" dəqiq millət anlayışı olmayan, vahid vətəndaş identikliyi əsasında dövlətin yaranmasına təkan verdi. Misal üçün, ABŞ-da Amerikan identikliyi - anqlo-saks ideologiyası üzərində qurulsa da, hər hansı bir millətin milli dəyərlərini əks etdirmir. Bu model daha çox yeni yaradılmış dəyərlərin əks olunduğu mozaik birləşmədir. Lakin bu mozaik birləşmədə yerli xalqların mədəni dəyərləri əks olunmur. Aborigen xalqlar hələ də cəmiyyətdən təcrid olunmuş şəkildə yaşayırlar. Misal üçün, hazırda Avstraliyanın yerli əhalisinin əksəriyyəti rezervasiya adlanan əlahiddə yaşayış məntəqələrində məskunlaşdırılmışdır. Onlar demək olar ki, yüksək mədəniyyətə yaxın buraxılmırlar. Eyni proses digər yeni dünya ölkələrində də izlənilir.

Multikulturalizmin İsveç Modeli: İsveç modeli mədəni müxtəlifliyin qorunmasına yönəlmiş siyasətin idarə edilməsində dövlətin fəal roluna əsaslanır. Dövlətin bu cür fəallığı ilk növbədə ölkədəki konkret siyasi durumla əlaqədardır. 1976-cı ildə İsveç hökuməti əcnəbilərə səs vermək hüququ verdi. İsveçdə dövlətin bu fəal mövqeyi güclü aktiv siyasi mövqeyə malik olan Sosial Demokrat Partiyasının hakimiyyəti ilə bağlıdır. İsveçin multikulturalizm siyasətinin əsas sahəsi dil və təhsil strategiyasıdır. Bu strategiyalar immiqrantları İsveç dilini və ana dillərini öyrənməyə təşviq etmək məqsədi daşıyır. 1997-ci ildə qəbul olunmuş "İmmiqrasiya haqqında Qanun" isə İsveçi multikulral cəmiyyət kimi qələmə verir. İsveç hökuməti ölkədəki mədəni müxtəlifliyə vacib və zəruri olan bir reallıq kimi yanaşır.

Multikulturalizmin Avstraliya Modeli: Avstraliyada multikulturalizm cəmiyyətinin formalaşmasından əvvəl dövlət tərəfindən həyata keçirilən təcrid siyasəti həyata keçirilirdi. 1901-ci ildə Avstraliyada qəbul edilən İmmiqrasiya Aktı hakim elitanı təcrid siyasətini idarə etmək üçün inzibati çərçivə ilə təmin etdi. Vəziyyət belə qanunvericilik sənədlərinin qəbulu

ilə dəyişməyə başladı: “Vətəndaşlıq haqqında qanun” (1948-ci il) düzəlişlərlə; "Miqrasiya haqqında qanun" (1958) əlavə və dəyişikliklərlə; "Əcnəbilər haqqında Qanun" (1984) düzəliş və "Viza Rejimi haqqında Qanun" (1997) (Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, 2024).

Qeyd etmək lazımdır ki, “multikulturalizm” termini siyasi leksikona ilk dəfə 1970-ci ildə – Avstraliyada İmmiqrasiya naziri vəzifəsində çalışmış Al Kresbi tərəfindən daxil edilmişdir. O, anglo-saksonlarla yeni avstraliyalılar arasındakı nifaqın aradan götürülməsində çox səy göstərmişdir. 1979-cu ildə hökumət Mədəni Müxtəlifliyin Problemləri üzrə Avstraliya İnstitutunu, 1987-ci ildə isə Multikulturalizm Problemləri Komitəsini yaratdı. Bu, Avstraliya dövlətinin immqrasiya siyasətində necə mühüm rol oynadığının və onun irqçilikdən multikulturallığa qədər inkişafında əldə etdiyi parlaq uğurların göstəricisidir.

Multikulturalizmin Kanada Modeli: Kanadada multikulturalizm cəmiyyətinin formalaşması XX əsrin 60-cı illərində başlamışdır. Kanada dövləti əhalinin irqi, etnik və dini müxtəlifliyinə inanırdı ki, bu da Kanada cəmiyyətinin əsas milli xüsusiyyətinə çevrildi. Bu o deməkdir ki, multikulturalizm kanadalıların ən mühüm milli xüsusiyyətlərindən biridir. Multikulturalizm Kanada Azadlıq və Hüquqlar Xartiyasının 27-ci bəndində qorunur. ABŞ və Avstraliyadan fərqli olaraq, Kanada heç vaxt etnik qrupların dominant əhali tərəfindən vəhşicəsinə assimilyasiyası ilə üzləşməyib. Kanada çoxdilli ölkədir (Prezident Kitabxanası, 2024).

Məlumdur ki, multikulturalizmin Kanada modeli yeni cəmiyyətdə hər millətin və etnik azlığın mədəni dəyərlərinin qorunmasına və inkişafına yönəlmiş dövlət siyasətidir. Ölkə əhalisinin 22%-ni (7,5 milyon nəfər) immiqrantlar təşkil edir. Kanadada multikulturalizm XX yüzilliyin 60-cı illərinin sonlarında Kvebek separatizminə cavab olaraq elan edilmiş və tam mərhələli şəkildə həyata keçirilmişdir. Kanadada multikulturalizm siyasətinin ilk rəsmi təzahürü isə ölkənin bilinqvist (lat.bi - iki, linqua - dil, bir ölkə daxilində paralel olaraq iki dildən istifadə edilməsi praktikası) məkan (ingilis-fransız) elan edilməsi olmuşdu.

Bu məqamda xüsusilə vurğulamaq lazımdır ki, II Dünya müharibəsindən sonra Kanadada ingilisdilli icmalarla fransızdilli icmalar arasında kəskin mübahisələr yaranmışdı. Multikulturalizm siyasətinin həyata keçirilməsi məhz bu mübahisələrin əsl diplomatik yollarla həll edilməsinə, həmçinin Kvebek separatizminin qarşısının alınmasına, dövlətin ərazi bütövlüyünün tam təmin edilməsinə eləcə də ölkəyə Vyetnamdan, Hindistandan, Çindən, ərəb ölkələrindən və Afrikadan kütləvi miqrant axınının intensivləşməsi ilə əlaqədar yenidən formalaşan multimədəni mühitin tənzimlənməsinə xidmət edirdi (Multikultural Azərbaycan, 2024).

Tədqiqatlar və müqayisələr göstərir ki, Kanada multikulturalizm modeli bir çox cəhətləri ilə Azərbaycan multikulturalizm modelinə bənzəyir. Kanadada multikultural cəmiyyətin formalaşması keçən əsrin 60-cı illərə təsadüf etdiyi üçün, o dövrdə Kanada hökuməti əhalinin irqi, etnik və konfessional müxtəlifliyini qəbul edib və bu da Kanada cəmiyyətinin əsas milli xüsusiyyəti kimi özünü göstərib. Bu da o deməkdir ki, multikulturalizm həm də kanadalıların ən mühüm milli xüsusiyyətlərindən biridir. Kanadada multikulturalizm Azadlıq və Hüquqlar Kanada Nizamnaməsinin 27-ci maddəsi ilə qorunur (Prezident Kitabxanası, 2024).

ABŞ və Avstraliyadan fərqli olaraq Kanadada etnik azlıqlara münasibətdə hakim etnik qrup tərəfindən assimilyasiya siyasəti yeridilmir. Kanadada hər bir etnik qrupun üzvləri öz ana dilini azad şəkildə istifadə etmək, həmçinin öz doğma dillərində təhsil almaq hüququna malikdirlər. Bu vacib situasiya Kanadada yaşayan etnik azlıqların öz mədəni dəyərlərini qoruya bilməsinə şərait yaradır.

Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanda multikulturalizmin, tolerantlığın və dini tolerantlığın dövlət siyasəti səviyyəsində inkişafı ölkənin qədim dövlətçilik tarixinə və bu ənənələrin inkişafına əsaslanır. Tarixi ənənələrə nəzər salsaq görərik ki, Səfəvilər dövləti dövründə, XIX-XX əsrlərin maarifçilik dövründə və Xalq Cümhuriyyəti dövründə

azərbaycanlılarla yanaşı, digər etnik və xalqların nümayəndələri, dini qruplar da Azərbaycan ərazisində yaşayırdı. XX əsrin sonlarında müstəqillik əldə etdikdən sonra bu siyasi davranış dövlətçilik ideologiyası şəklini aldı, tolerantlıq və multikulturalizm ənənələri bərpa olundu. Bundan əlavə, Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikası Konstitusiyasının maddələrinin müvafiq müddəalarında, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapmışdır (Бабаева, 2021: 194).

Qeyd etdiyimiz kimi, Azərbaycan zəngin mədəni-mənəvi irsə, tolerantlıq ənənələrinə malikdir. Azərbaycanda mövcud olan milli-mədəni müxtəliflik, etnik və dini tolerantlıq mühiti sayəsində Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkə, qlobal miqyasda mədəniyyətlərarası dialoq məkanı kimi tanınıb. Bu gün Azərbaycan Respublikasında uğurla həyata keçirilən dövlət siyasəti bu mədəni, dil və etnik müxtəlifliyin qorunub saxlanmasına yönəlib. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunub saxlanması sahəsində həyata keçirilən siyasi kurs Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Ölkə başçısının göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. Bununla yanaşı, Ulu Öndərin hakimiyyətə gəlməsindən sonra qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi (Həbibbəyli, 2012).

Təsadüfi deyildir ki, 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilib. Fikrimizcə Azərbaycanda multikulturalizm siyasəti tarixi ənənələrə söykənən milli və dini münasibətlər modeli olmaqla yanaşı, həmçinin, mədəni müxtəlifliyin, xalqların milli-mədəni irsinin qorunması və inkişafına, onların qarşılıqlı faydalı inteqrasiyasına yönəldilmişdir. Müxtəlif etnik mədəniyyətlər arasında ənənəvi birgəyaşayış, qarşılıqlı hörmət prinsiplərinə söykənən bu model sivilzasiyalararası və mədəniyatlərarası dialoq prosesində Azərbaycan Respublikasının çox uğurlu missiyası və töhfəsidir (Azərbaycan qəzeti, 2018).

Bu baxımdan, bu gün multikulturalizmin Azərbaycan modeli dünya xalqları arasında münasibətlərin dərinləşməsinə istiqamətlənmiş mühüm və müsbət dəyər kimi geniş və hərtərəfli şəkildə təşviq edilir. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu "İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi altında dünya miqyasında terrorizm təhlükəsi, Avropada kəskinləşən miqrasiya böhranı və cəmiyyətlərdə dözümsüzlüyün artması mühitində keçirildi. Bununla yanaşı dünyanın 140-dan çox ölkəsinin nümayəndələri planetin müxtəlif regionlarında etnik və dini zəmində baş verən qarşıdurma və toqquşmalar kimi mürəkkəb problemlərin həllinə dair vahid fikrə gəlmək üçün geniş müzakirələr apardılar və konstruktiv dialoqun inkişafına xidmət edəcək təkliflər səsləndirdilər. Çıxışlarda qaldırılan təşəbbüslər, tövsiyələr mədəniyyətlər, sivilizasiyalar arasında əməkdaşlığa, əlaqələrin güclənməsinə, qarşılıqlı anlaşmaya öz böyük töhfəsini Verdi (Azərbaycan qəzeti, 2018).

Nəzərə almalıyıq ki, multikulturalizmin müxtəlif modelləri (ABŞ, İsveç, Avstraliya, Kanada modeli) olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model bir çox mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilməkdədir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır. ABŞ-ın Yuta və Oreqon ştatlarının Senat və Nümayəndələr Palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamənin qəbul edilməsi qeyd edilənlərə bariz nümunədir.

Bu baxımdan, azərbaycançılıq ideologiyasına uyğun olaraq, tolerantlığın və mədəni, dini, dil müxtəlifliyinin qorunub saxlanmasını təmin etmək, o cümlədən Azərbaycanın dünyada multikulturalizm mərkəzi kimi tanınması, tədqiqat və mövcud multikulturalizm modellərinin təbliği, Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2014-cü il tarixli Sərəncamı ilə Millətlərarası, multikulturalizm və din məsələləri üzrə Dövlət müşaviri xidməti

yaradılmış, onun tərəfindən 4 virtual dəyirmi masa təşkil edilmişdir. Bununla yanaşı Azərbaycan Respublikası Prezidentinin 15 may 2014-cü il tarixli sərəncamları ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmış və 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir (Куропятник, 2000: 7).

Bu səbəbdən Azərbaycanda multikulturalizm, millətlərarası və konfessiyalararası münasibətlər və dialoq məsələlərinə həsr olunmuş çoxsaylı beynəlxalq tədbirlər, elmi konfranslar keçirilir. Buna misal olaraq 2010-cu ilin aprelində "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda keçirilən tədbiri, 2011-ci ildən isə (iki ildən bir) Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Təkcə 2017-ci ildə ölkə daxilində 1 iclas, 5 elmi-metodiki seminar, 6 konfrans, 7 təqdimat, 13 dəyirmi masa; və həmçinin xaricdə – 3 dəyirmi masa, 3 mühazirə və təqdimat, 4 konfrans keçirilmişdir. 2017-ci ilin sonuna kimi Azərbaycanın 17 xarici və 36 ali təhsil müəssisəsində "Azərbaycan multikulturalizmi" kursu tədris olunmağa başlayıb. İl ərzində müəllimlər üçün həm ölkə daxilində, həm də xaricdə 4 treninq təşkil edilmiş, iştirakçılara müvafiq sertifikatlar verilmişdir. "Azərbaycanda multikulturalizm həyat tərzi kimi: İslam həmrəyliyi bizə nə verir?" devizi altında Qəbələ, Oğuz, Şəki, Qax və Bakıda beynəlxalq multikulturalizm qış və yay məktəbləri təşkil edilmiş və keçirilmişdir. 2018-ci ildə "Müasir Azərbaycan: sosial, siyasi və iqtisadi inkişaf", "ADR – Şərqdə ilk demokratik respublika" və s. mövzularda konfranslar keçirilib. Prezident İlham Əliyev 2019-cu il fevralın 4-də Multikulturalizm Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında sərəncam imzalayıb. 2022-ci ildə "Heydər Əliyev və Azərbaycan multikulturalizmi" və "Prioritet qlobal problemlərə multikulturalizm perspektivləri" mövzularında konfranslar keçirilib. 2023-cü ildə "Həqiqət onomastikası - 2: "Qarabağ və Şərqi Zəngəzur", rus dilində "Həqiqət onomastikası", ingilis dilində "Qarabağ və Şərqi Zəngəzurun alban abidələri", "Qafqaz ərazisinin 1847-ci il hərbi topoqrafik xəritəsi" kitabları çap olunub, "Azərbaycan albanşünaslığı tarixi" biblioqrafiyası nəşr edilmişdir (Bakuforum, 2024).

Xüsusilə qeyd etmək lazımdır ki, 2020-ci ildə 44 gün davam edən İkinci Qarabağ müharibəsində respublikamızda yaşayan müxtəlif millətlərin nümayəndələri Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda birgə döyüşüblər. Ölkəmizdə milli mənsubiyyətindən asılı olmayaraq bütün xalqların dini bayram və ayinlərinə riayət olunması, eyni zamanda, multikultural dəyərlərə diqqət yetirilir. İşğaldan azad edilmiş ərazilərimizdə ermənilər tərəfindən dağıdılmış dini abidələrin bərpası, alban və udi xalqlarına məxsus kilsələrin bərpası Azərbaycanın multikultural siyasətindən irəli gələn humanizmdir (Prezident Kitabxanası, 2024).

Qeyd etmək lazımdır ki, belə forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO ilə əməkdaşlıq çərçivəsində keçirilir. Bundan əlavə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin qış və yay məktəblərinin layihəsi Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilati dəstəyi ilə həyata keçirilir. "Azərbaycan multikulturalizmi" fənninin xaricdə və ölkədəki universitetlərdə tədrisi" layihəsi çərçivəsində hazırda dünyanın 13 nüfuzlu universitetinin və Azərbaycanın 28 universitetinin tədris proqramlarına "Azərbaycan multikulturalizmi" fənni daxil edilmişdir (Малахова, Тишкова, 2002: 43).

Beləliklə, multikulturalizmlə bağlı məsələləri araşdırarkən diqqət yetirmək lazımdır ki, multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib. Hazırda Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti dövlətimizin tolerantlıq prinsiplərinə sadiqliyinin bariz nümunəsidir, burada mədəni müxtəliflik onları birləşdirən milli həmrəyliyin inkişafı üçün münbit mühit kimi qəbul edilir.

**ƏDƏBIYYAT**

Azərbaycan qəzeti, (2018). yanvar 5: 5, https://www.elibrary.az/docs/qazet/qzt2018_89.htm

Bakuforum (2024). https://bakuforum.az/ru/multikulturalizm-dostizheniya-i-problemy/?fid=2257

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi: https://scwra.gov.az/az/xeber/ictimaiyyetle-elaqeler/meqale/multikulturalizmin-azerbaycan-modeli

Həbibbəyli, Ə. Multikulturalizmin Azərbaycan modeli, Azərbaycan qəzeti, 2012, 4 dekabr, s. 6.: https://www.anl.az/down/meqale/edebiyyat/2012/noyabr/281678.htm

Multikultural Azərbaycan: https://multikultural.az/az/beynelxalq-senedler/979/multikulturalizmin-kanada-modeli/

5. Prezident Kitabxanası: https://multiculturalism.preslib.az/ru_a1.html

Антонова, В. (2012). Мультикультаризм. М.: ООО «Вариант», ЦСПГИ, 118 с.

Бабаева, Зульфия (2021). Политика мультикультурализма как инструмент «мягкой силы» // Azərbaycan Dillər Universitetinin "Heydər Əliyev: Multikulturalizm və tollerantlıq ideologiyası" mövzusunda 07 may 2021-ci il tarixində keçirilmiş IV beynəlxalq elmi konfrası, s.192-194.

Йеменский, О.Б. (27.02.2015). Соблазн мультикультурализма//Агентство Политических Новостей. 2012. 29 августа, http://www.apn.ru/publications/article27077.htm

Гусейнов, А., Прокофьев, А. (2005). Диалог культур в глобализирующемся мире: мировоззренческие аспекты / отв. ред. В.В. Степин, А.А. Гусейнов; Институт философии. М.: Наука, с. 123—150.

Куропятник, А. И. (2000), Мультикультурализм: проблемы социальной стабильности полиэтнических обществ. СПб.: Изд-во СПбГУ, с. 7.

Малахова, В.С., Тишкова, В.А. (2002). Мультикультурализм и трансформация постсоветских обществ. Москва, с. 48.

Banting, K., Kymlicka, W. (2006). Multiculturalism and the welfare state: recognition andredistribution in contemporary dcmocracie. Oxford: Oxford University Press, p. 4.

Bernstein, R. (1994). Dictatorship of Virtue: Multiculturalism and the Battle for America's Future. N. Y.: Alfred A. Knopf, p. 4.